DÜNYA

# Rusiyanın uzaq adası bioloji silah sirlərini gizlədir – Araşdırma

1 dəqiqə öncə




Rusiya Prezidenti Vladimir Putin, Lisiy adasının peyk şəkli və adadakı Eksperimental Fiziologiya Mərkəzinin rəhbəri Vladimir Maksimov.

Rusiyada ictimaiyyətə qapalı, ucqar adada yerləşən elmi müəssisə ordu üçün bioloji silahlar hazırlamaqda suçlanan institutla əlaqəlidir. Bunu AzadlıqRadiosunun rus xidməti və "Sistema" araşdırmalar layihəsi üzə çıxarıb.

Vaxtilə Tver vilayətində yerləşən Vışnevolotsk su hövzəsindəki adalara yerli sakinlər balıq tutmağa, giləmeyvə yığmağa gedərdi. 2023-cü ildən adanın şimal hissəsi "təbii qoruq" elan edilib. Adaların çoxuna, hazırda Eksperimental Fiziologiya Mərkəzinin yerləşdiyi Lisiy adasına giriş məhdudlaşdırılıb.

"Sistema" və AzadlıqRadiosunun rus xidməti müəyyən edib ki, mərkəzin rəhbəri **Vladimir Maksimov** Rusiya Müdafiə Nazirliyinin 48-ci Mərkəzi Elmi-Tədqiqat İnstitutunun keçmiş əməkdaşıdır. Bu institut ölkədə bioloji silahlardan müdafiə sistemlərinin hazırlanması üzrə aparıcı müəssisədir. ABŞ 2020-ci ildə onu və Rusiyanın daha iki institutunu bioloji və kimyəvi silah proqramlarını davam etdirməkdə suçlayaraq qara siyahıya salıb.

Lisiy adasındakı mərkəzin tabe olduğu federal qurumun adı bəzi araşdırmalarda da hallanıb. Söhbət müxalifətçi Aleksey Navalnının və Rusiya Baş Kəşfiyyat İdarəsinin – QRU-nun keçmiş zabiti Sergey Skripalın "Noviçok" tipli sinir qazı ilə zəhərlənməsindən gedir.

## Təhlükəli viruslarla təcrübələr

Rusiya hökuməti son onilliklər Lisiy adasından, demək olar, istifadə etmirdi. Ancaq vaxtilə adada yoluxucu xəstəliklərin tədqiqi ilə bağlı zəngin elmi araşdırma aparılıb.

Çar Rusiyası dövründə adada baytarlıq laboratoriyası yerləşib. Stalin dövründə isə burada "kənd təsərrüfatı heyvanlarının yoluxucu xəstəlikləri ilə bağlı kəskin təcrübələrin aparılması" üçün müəssisə fəaliyyət göstərib.

2021-ci ilin yazında, Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı işğalının başlamasından təxminən bir il əvvəl adadakı yaşayış məntəqəsi Eksperimental Fiziologiya Mərkəzinə çevrilib. Qurum Rusiyanın Federal Tibbi-Bioloji Agentliyinin tərkibinə salınıb. Mərkəzin tikintisi 2025-ci ilin payızında başa çatdırılıb.



Ukraynanın hərbi kəşfiyyat idarəsi avqustun 21-də iddia edib ki, Eksperimental Fiziologiya Mərkəzində "Rusiya silahlı qüvvələrinin maraqları naminə təhlükəli viruslar və digər patogenlərlə təcrübələr aparılır".

"Sistema" və "Radio Svoboda" mərkəzin rəhbəri Maksimov vasitəsilə müəssisənin Rusiya Silahlı Qüvvələri ilə əlaqəsini müəyyən edib.

Maksimov Lisiy adasındakı mərkəzə rəhbərlik etməzdən əvvəl uzun müddət Rusiya ordusu üçün bioloji tədqiqatların aparılmasında iştirak edib. O, əsasən "Ebola" və "Marburq" kimi nadir və ölümcül qızdırma virusları üzrə ixtisaslaşıb. Sovet İttifaqında hər iki patogenə bioloji silahların hazırlanması üçün potensial əsas kimi baxılırdı.

Maksimov 1999-2006-cı illərdə Rusiyanın 44026 saylı hərbi hissəsinə – Müdafiə Nazirliyinin Mikrobiologiya İnstitutunun Virusologiya Mərkəzinə rəhbərlik edib. Bu hərbi hissə Moskva yaxınlığındakı Sergiyev Posad şəhərində yerləşir. 2008-ci ildə Rusiya Müdafiə Nazirliyinin 48-ci Mərkəzi Elmi-Tədqiqat İnstitutu adlandırılıb.

Qərb kəşfiyyat xidmətlərinin qənaətinə görə, Sovet İttifaqının bioloji silahların hazırlanması proqramından qalan bəzi strukturlar bu institutda birləşdirilib.

Maksimov 2008-ci ildə də bu institutda işə davam edib, amma, artıq direktor vəzifəsini tutmayıb.

"Sistema" Maksimovun 2022-ci ilə aid vizit kartını aşkarlayıb. O, AzadlıqRadiosunun telefon zənglərinə və göndərdiyi mesajlara cavab verməyib.

"Radio Svoboda" 2024-cü ildə müəyyən etmişdi ki, Rusiya prezidenti Vladimir Putin 2022-ci ilin fevralında Ukraynanın genişmiqyaslı işğalına başlayandan Sergiyev Posaddakı mərkəz də xeyli genişləndirilib.




Lisiy adasında yerləşən Eksperimental Fiziologiya Mərkəzinin əsas laboratoriya korpusu inşa prosesində

## Pandemiya hərbi planlar üçün fürsət olub? – Ekspert şübhələri

Araşdırma üzə çıxarıb ki, Lisiy adası və Sergiyev Posaddakı tədqiqat müəssisələri 2021-ci ilin sonlarında genişləndirilməyə başlanıb, yəni işğaldan bir neçə ay əvvəl. O zaman

qlobal COVID-19 pandemiyası da səngiməyə başlamışdı. Hər iki müəssisədə Rusiyanın COVID-19 peyvəndləri hazırlanıb.

Sovet İttifaqının bioloji silah proqramı üzrə mütəxəssis **Milton Leytenberq** tədqiqat imkanlarının genişləndirilməsinin Moskvanın pandemiyaya cavabı olduğuna şübhə edir. O, Ukraynanın işğalı məsələsinə diqqət çəkir: **"Putinin Ukraynaya hücum etmək qərarını ən geci 2021-ci ilin ortalarında verdiyini nəzərə alsaq, Rusiyanın bioloji silahlar üzrə tədqiqatlarının genişləndirilməsinə və Lisiy adasında yeni laboratoriyaların bu prosesə cəlbinə həmin kontekstdə baxmaq lazımdır".**

Onun sözlərinə görə, Rusiyanın bioloji silahlardan müharibədə necə istifadə etmək niyyətləri sirr olaraq qalır. Bununla yanaşı, digər hərbi sahələrlə bərabər, yaranmış fürsətdən istifadə edilərək bioloji tədqiqat fəaliyyəti də genişləndirilə bilərdi.

Leytenberqin fikrincə, Maksimovun, 48-ci Mərkəzi Elmi-Tədqiqat İnstitutunun digər keçmiş yüksəkvəzifəlilərinin Eksperimental Fiziologiya Mərkəzinə rəhbər təyin edilməsi vacib dəlildir. Yəni, Lisiy adasındakı yeni müəssisə də hərbi fəaliyyətin genişləndirilməsinin bir hissəsi ola bilər.

## "Tibbi xüsusi təyinatlılar"

Putin Federal Tibbi-Bioloji Agentliyin (FTBA) rəsmiləri ilə mütəmadi görüşür. Sonuncu dəfə avqustda görüşüblər. Prezident agentliyi "tibbi xüsusi təyinatlı qüvvələr" adlandırmışdı.

"Sistema" 2020-ci ildə "Noviçok" maddəsinin yenilənmiş versiyası ilə bağlı araşdırma aparmışdı. Bəlli olmuşdu ki, FTBA-nın nəzarətində olan, Rusiyanın Leninqrad vilayətində yerləşən bir tədqiqat institutu "Siqnal" adlı elmi mərkəzin hazırladığı bir sıra bioloji əlavələr istehsal edib.

"Siqnal"ın Ekvador qurbağasından əldə edilən epibatidin adlı zəhər üzərində araşdırma apardığı müəyyən olunub. Navalnının 2024-cü ilin fevralında qəfil öldüyü Arktika həbsxanasında məhz bu maddədən zəhərləndiyi ehtimalı var.

Moskva isə bioloji və kimyəvi silahların hazırlanmasına yönəlik tədqiqatlar aparmadığını deyir. Yalnız belə silahların mümkün istifadəsinə qarşı müdafiə vasitələrinin hazırlandığı bildirilir.

Navalnının zəhərlənməsi ilə bağlı araşdırma isə Rusiyanın ratifikasiya etdiyi müvafiq beynəlxalq konvensiyaları pozaraq bu cür silahların hazırlanması üzərində işlədiyini göstərib.

## Buna da bax:

30-dan çox ölkədə 120 biolaboratoriya: ABŞ kəşfiyyatı illərdir gizli saxlanılan siyahını açıqladı

Rusiyanın eks-prezidenti müharibəni necə gəlir mənbəyinə çevirdi...

Putin ailəsinin əcnəbi dayələri – araşdırma

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur